# Nazirlər Kabineti yanında Operativ Qərargah pandemiya ilə bağlı vəziyyəti və peyvəndləmə prosesini müzakirə edib

**Bu gün Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda qərargah üzvləri, şəhər və rayonların icra hakimiyyəti başçıları və baş həkimlər iştirak ediblər. İclas zamanı ölkədə pandemiyaya qarşı mübarizənin vəziyyəti - yoluxmanın dinamikası və peyvəndləmə prosesinin gedişi müzakirə olunub.

Ölkədə peyvənd ehtiyatı ilə bağlı vəziyyətin qənaətbəxş olduğu qeyd edilib.

Peyvəndlənmənin əhəmiyyətinə dair maarifləndirmə işinin daha da genişləndirilməsi, peyvənd vurulması prosesinin sürətləndirilməsi və nəzarətin gücləndirilməsi haqda tapşırıqlar verilib.



